İPƏK YOLU, No.2, 2025, səh.114-124
https://doi.org/10.30546/SI.2025.2.5.245

# MÜASİR CƏMİYYƏT VƏ DİLİN TRANSFORMASİYASI: SİYASİ DİSKURSDA MANİPULYASİYA VƏ ARQUMENTASİYA

**Könül Həbibova**

İ. Nəsimi adına Dilçilik İnstitutu AMEA, Bakı, Azərbaycan
e-mail: habibovakonul@gmail.com

**Xülasə.** Məqalədə müasir cəmiyyətin inkişafı fonunda siyasi diskursda manipulyasiya və arqumentasiya bir-birini tamamlayan amillər kimi elmi təhlilə cəlb edilmişdir. Siyasi diskursun yalnız siyasi liderlərin çıxışları ilə məhdudlaşmadığı, həmçinin media, reklam və sosial şəbəkələr vasitəsilə ictimai rəyə təsir etdiyi vurğulanır. Araşdırmada logos, patos və ethos elementlərinin siyasi arqumentasiyada istifadəsi və manipulyasiya strategiyaları təhlil edilir. Siyasi ritorika və diskursun əsas xüsusiyyətləri nümunələrlə izah edilir. Nəticədə siyasi diskursun ideoloji təsir vasitəsi kimi rolu və onun cəmiyyətə təsiri qiymətləndirilir.

**Açar sözlər:** Siyasi diskurs, manipulyasiya, arqumentasiya, dilçilik, siyasi ritorika, ideoloji təsir.

## MODERN SOCIETY AND LANGUAGE TRANSFORMATION: MANIPULATION AND ARGUMENTATION IN POLITICAL DISCOURSE

**Konul Habibova**
*Institute of Linguistics named after I. Nasimi ANAS, Baku, Azerbaijan*

**Abstract.** The article examines manipulation and argumentation in political discourse as complementary factors in the context of modern societal development. It emphasizes that political discourse is not limited to the speeches of political leaders but also influences public opinion through media, advertising and social networks. The study analyzes the use of logos, pathos and ethos elements in political argumentation and explores manipulation strategies. The key characteristics of political rhetoric and discourse are explained with examples. As a result, the role of political discourse as an ideological influence tool and its impact on society are assessed.

**Keywords:** Political discourse, manipulation, argumentation, linguistics, political rhetoric, ideological influence.

## СОВРЕМЕННОЕ ОБЩЕСТВО И ТРАНСФОРМАЦИЯ ЯЗЫКА: МАНИПУЛЯЦИЯ И АРГУМЕНТАЦИЯ В ПОЛИТИЧЕСКОМ ДИСКУРСЕ

**Конуль Габибова**
*Институт Языкознания имени И. Насими НАНА, Баку, Азербайджан*

**Резюме.** В статье рассматриваются манипуляция и аргументация в политическом дискурсе как взаимодополняющие факторы в контексте развития современного общества. Подчеркивается, что политический дискурс не ограничивается выступлениями политических лидеров, но также оказывает влияние на общественное мнение через средства массовой информации, рекламу и социальные сети. В исследовании анализируется использование элементов логоса, пафоса и этоса в политической аргументации, а также рассматриваются стратегии манипуляции. Ключевые характеристики политической риторики и дискурса объясняются на примерах. В результате оценивается роль политического дискурса как инструмента идеологического воздействия и его влияние на общество.

**Ключевые слова:** Политический дискурс, манипуляция, аргументация, лингвистика, политическая риторика, идеологическое влияние.

## 1. Giriş

Müasir cəmiyyətin inkişafı aksioloji (dəyərlərlə bağlı) və sürətli bir prosesdir. Qloballaşma, texnologiyanın inkişafı, informasiya mübadiləsinin artması və siyasi hadisələrin dinamik xarakter daşıması nəticəsində insanların dünyagörüşü, ünsiyyət formaları və düşüncə tərzi dəyişir. Bu prosesin ən mühüm komponentlərindən biri isə dildir, çünki dil yalnız ünsiyyət vasitəsi deyil, həm də insan təfəkkürünün və sosial münasibətlərin qurulması mexanizmində əsas və ən vacib elementdir.

Dilin dinamik və dəyişkən bir sistem olması onun cəmiyyətin inkişafına paralel olaraq transformasiyaya uğramasına səbəb olur. Bəşəriyyətin keçmişdə və müasir dövrdə yaratdığı bütün fəaliyyət sahələri, mühüm sosial və tarixi hadisələr, ideoloji dəyişikliklər və siyasi proseslər dildə öz əksini tapır. Bu səbəbdən də müasir dilçilikdə dilin yalnız qrammatik və struktur analizi ilə məhdudlaşmaq mümkün deyil, eyni zamanda onun semantik və praqmatik aspektləri də diqqət mərkəzində saxlanılır.

Dilçilik tədqiqatlarında dil və ünsiyyət anlayışları bir-biri ilə ayrılmaz şəkildə bağlıdır, çünki dil yalnız qrammatik və struktur səviyyədə mövcud olmaqla kifayətlənmir, eyni zamanda onun əsas funksiyası ünsiyyəti təmin etmək, informasiyanı ötürmək və insanlar arasında sosial əlaqələri qurmaqdır. "*Ünsiyyət dil vahidləri vasitəsilə müəyyən məlumat bildirmə, xəbər vermə, ünsiyyət, həmçinin düşüncələrin, ideyaların, informasiyaların, hisslərin mübadiləsi deməkdir*" [14, s.28]. Ünsiyyət olmadan dilin semantik və praqmatik aspektləri özünü göstərməz və dil statik bir sistem olaraq qalardı.

Xüsusilə də siyasi diskurs bu kontekstdə mühüm əhəmiyyət daşıyır, çünki siyasət cəmiyyətdə mövcud ideoloji sistemləri formalaşdıran, sosial münasibətləri tənzimləyən və hakimiyyətin qurulmasında əsas vasitə rolunu oynayan bir sahədir. Siyasi nitqlər, debatlar, seçki kampaniyaları və dövlət rəsmilərinin çıxışları cəmiyyətin ictimai və siyasi şüurunu yönləndirən əsas kommunikasiya formalarından biridir.

Bu fikri təsdiq edən A.İ. Şükürova qeyd edir ki, "*siyasi diskursda vətəndaş və siyasətçi arasında müxtəlif formatlı məlumat mübadiləsi baş verir, yəni ünsiyyət yaranır. Demək, siyasət siyasi kommunikasiyada reallaşır*" [18, s.10]. Bu sitatdan da göründüyü kimi siyasi diskurs sadəcə ideoloji konseptlər və siyasi ritorika ilə məhdudlaşmır. O, eyni zamanda siyasi liderlərlə vətəndaşlar arasında interaktiv əlaqəni təmin edən əsas ünsiyyət müstəvisi rolunu oynayır. Siyasi çıxışlar və kampaniyalar ictimaiyyəti məlumatlandırmaq, müəyyən ideologiyaları yaymaq və fərqli qrupları səfərbər etmək üçün istifadə olunur.

Beləliklə, siyasi diskursun əsas mahiyyəti onun kommunikativ funksiyasında ifadə olunur. Dövlət rəsmiləri, siyasətçilər və media təmsilçiləri ictimaiyyətlə daim qarşılıqlı ünsiyyətdə olur və bu ünsiyyət vasitəsilə siyasi məqsədlərini reallaşdırırlar. Bu baxımdan, siyasi diskursun öyrənilməsi dil və ünsiyyət arasındakı qarşılıqlı əlaqəni başa düşmək və dilin siyasi manipulyasiya üçün necə istifadə edildiyini anlamaq baxımından xüsusi əhəmiyyət kəsb edir.

Müasir dövrdə siyasi diskursun manipulyativ xüsusiyyətlərinin tədqiqi həm nəzəri, həm də praktik baxımdan aktuallıq kəsb edir. Qloballaşma, rəqəmsal medianın inkişafı və informasiya axınının sürətlənməsi nəticəsində siyasi ünsiyyət strategiyaları dəyişir və yeni

manipulyasiya texnikaları meydana çıxır. Xüsusilə sosial şəbəkələr, onlayn media və ictimai rəy formalaşdıran digər platformalar siyasi ritorikanın və diskurs texnikalarının daha effektiv və sürətli şəkildə yayılmasına şərait yaradır.

Bu tədqiqatın aktuallığı siyasi diskursda manipulyativ və arqumentativ vasitələrin təsirini müəyyən etmək, onların ictimaiyyətə necə yönləndirildiyini və cəmiyyətin siyasi davranışına necə təsir etdiyini araşdırmaqla bağlıdır. Siyasi liderlər və dövlət qurumları ictimai rəyin formalaşdırılmasında müəyyən dil texnikalarından istifadə edərək fərqli məqsədlərə nail olmağa çalışırlar. Bu baxımdan, dilin manipulyativ funksiyası və onun arqumentativ-strategik quruluşu müasir dilçilik tədqiqatlarında əsas mövzulardan birinə çevrilmişdir.

Siyasi diskursun öyrənilməsi yalnız nəzəri cəhətdən deyil, həm də praktiki baxımdan mühüm əhəmiyyət daşıyır. Çünki siyasi manipulyasiyaları aşkar etmək və onların təsirini azaltmaq üçün insanların siyasi nitqin strukturunu və ritorik taktikasını tanıması vacibdir. İctimaiyyəti yanlış yönləndirmək məqsədilə istifadə olunan dil vasitələri, xüsusilə evfemizmlər, metonimiya, təkrarlama texnikası, ritorik suallar və arqumentasiya metodları vasitəsilə siyasi mesajlar daha təsirli və inandırıcı təqdim olunur.

Siyasi diskursun tədqiqi dil və siyasət arasındakı əlaqənin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir və bu mövzuda həm Azərbaycan, həm də dünya dilçiliyində aparılan araşdırmalar siyasi nitqin manipulyativ və arqumentativ funksiyalarını ön plana çəkir. E.A. Zeynalov "İngilis dilinin Britaniya və Amerika variantlarında beynəlxalq siyasi diskursun leksikası" adlı tədqiqatında siyasi diskursu məhz bu aspektdən araşdıraraq siyasi çıxışların leksik və praqmatik xüsusiyyətlərini öyrənir və dilin siyasi arqumentasiya vasitəsi kimi rolunu xüsusilə vurğulayır. Müəllifin tədqiqatı göstərir ki, "*siyasi diskurs təkcə siyasi ritorikanın bir forması deyil, eyni zamanda ictimai rəyin formalaşdırılmasında və ideoloji sistemlərin qurulmasında əsaslı rol oynayan manipulyativ vasitədir*" [19, s.11].

Bu yanaşma K.Ə. Həbibovanın siyasi diskursda nitqin manipulyativ strategiyaları ilə bağlı tədqiqatında da öz əksini tapır. Müəllif qeyd edir ki, "*bugünkü siyasi diskurs kütləvi şüura təsir etməyə yönəlmiş müxtəlif nitqi taktika və üsulların geniş tətbiq olunduğu meydandır. Siyasətdə nitq manipulyasiyasının müasir strategiyalarının təhlili bizə ictimai rəyin necə formalaşdığını, auditoriyanı manipulyasiya etmək üçün hansı üsullardan istifadə edildiyini və bu texnikalar sayəsində hansı nəticələrin əldə edildiyini anlamağa imkan verir*" [7, s.135].

Deməli, siyasi diskurs yalnız bir kommunikasiya forması deyil, həm də hakimiyyətin və ideoloji təsirin əsas vasitələrindən biridir. "*Siyasi diskursun əsas funksiyalarından biri əhalinin geniş kütlələrinə mənəvi və siyasi nöqteyi-nəzərdən düzgün ideyalar və baxışları, yəni ideologiyanı təqdim etməkdir*" [18, s.11]. Bu diskursda istifadə olunan dil vasitələri və manipulyasiya texnikaları auditoriyanın siyasi baxışlarını formalaşdırmaq, ictimai rəyə təsir etmək və müəyyən ideoloji çərçivələr yaratmaq üçün sistemli şəkildə tətbiq olunur.

Beləliklə, siyasi diskursun manipulyativ xüsusiyyətlərinin araşdırılması, ictimai rəyin formalaşması mexanizmlərini daha dərindən anlamağa və siyasi nitqin təsir gücünü

müəyyənləşdirməyə imkan verir. Bu baxımdan, hər iki müəllifin tədqiqatları dil və siyasət arasındakı qarşılıqlı əlaqəni aydınlaşdırmaq və siyasi ritorikanın cəmiyyətə təsirini daha sistemli şəkildə öyrənmək üçün mühüm töhfə verə bilər.

## 2. Mövzunun işlənmə dərəcəsi

Siyasi diskurs və manipulyasiya məsələsi müasir dilçilik tədqiqatlarında geniş yer tutur və bu istiqamətdə müxtəlif yanaşmalar mövcuddur. Müasir dilçilikdə siyasi diskursun manipulyativ funksiyası müxtəlif aspektlərdən araşdırılmışdır və bu sahədə aparılan tədqiqatlar göstərir ki, dilin siyasi müstəvidə necə istifadə olunması təkcə kommunikasiya deyil, həm də hakimiyyətin qurulması və idarə edilməsi mexanizminə çevrilir.

Azərbaycan dilçilərindən E.A. Zeynalov siyasi diskursda nitq aktlarının manipulyativ funksiyasını və onların siyasətçi intensiyasından asılı olaraq dəyişməsini vurğulayır. O qeyd edir ki, "*siyasi diskursa aid nitq aktları və onlardan siyasi manipulyasiya vasitəsi kimi istifadə edilməsi siyasətçinin intensiyasından asılı olaraq dəyişə bilir və müxtəlif intensiyalar üçün müxtəlif nitq aktlarından istifadə edilməsi təbii hesab edilməlidir*" [19, s.26]. Bu fikir siyasi ritorikada nitq aktlarının hədəf auditoriyanın inandırılması və manipulyasiyası üçün seçildiyini göstərir.

Digər tərəfdən, A. Allahverdiyeva siyasi diskursun təlqin və arqumentasiya strategiyaları ilə bağlı nəzəri əsaslarını araşdıraraq, bildirir ki, "*siyasi diskurs öz xarakteristikasına görə potensial interpretatorun görüşlərini nəzərə alaraq təlqinə hədəflənir və interpretatorun niyyətlərinin, auditoriyanın fəaliyyət istiqamətinin dəyişməsinə çalışır*" [3, s.119]. Burada vurğulanan əsas məqam odur ki, siyasi nitq yalnız informativ bir proses deyil, həm də auditoriyanı müəyyən siyasi ideologiyalara yönəltmək və onları müəyyən düşüncə çərçivəsində saxlamaq üçün təlqin vasitəsi kimi istifadə edilir.

Dil və siyasət bir-biri ilə qarşılıqlı asılı münasibətlərə malikdir. O. Kuzmenko və digər tədqiqatçılar bu məsələni araşdıraraq qeyd edirlər ki, "*siyasi diskursun arqumentasiyası və onun ideologiyası, istənilən cəmiyyətin fəaliyyətinin əksi kimi dilin ayrılmaz komponentləridir*" [11, s.207]. Bu fikir siyasi diskursun yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də ictimai rəyin formalaşdırılmasında əsas rol oynayan ideoloji bir sistem kimi çıxış etdiyini göstərir.

Rus dilçilərindən olan A. Fionova siyasi manipulyasiya ilə bağlı tədqiqatında qeyd edir ki, "*insanları özlərinin belə fərqinə varmadan müəyyən bir düşüncə tərzinə və davranışa yönləndirmək üçün daha təsirli bir yol mövcuddur. Bu, insanların şüuraltına birbaşa təsir edərək, lazımi mesajı onların beyninə həkk etməkdir. Bütün bunlar dilin manipulyasiyası vasitəsilə həyata keçirilə bilər*" [20, s.418].

A.S. Akopova isə manipulyasiya prosesini belə izah edir: "*Manipulyasiya o zaman baş verir ki, dinləyici, danışanın sözlərinin arxasında gizli niyyətini görə bilmir*" [2, s.78]. Bu yanaşma göstərir ki, dilin manipulyativ istifadəsi emosional və psixoloji təsirlə bağlıdır və insanları müəyyən fikirlərə yönəltmək üçün gizli və dolayı yollarla istifadə edilə bilər.

İngilis dilçisi C. Orvell dilin hakimiyyət vasitəsi kimi istifadəsini belə izah edir: "*Düşüncə dili korlayır və dil də insan münasibətlərini pozur*" [16, s.24]. Bu fikir siyasi

ritorikanın və arqumentasiyanın insan münasibətlərini necə dəyişdirdiyini və cəmiyyətin sosial strukturuna təsirini göstərir. Müasir siyasi diskurs reallığı manipulyasiya etmək, ictimaiyyəti müəyyən düşüncə tərzinə yönəltmək və hakimiyyətin məqsədlərinə xidmət edən ideoloji çərçivə yaratmaq üçün istifadə olunur. F. Makaqno siyasi sloqanların manipulyativ gücünü araşdıraraq bildirir ki, "*sözlər yalnız informasiya daşıyıcısı deyil, həm də emosional təsir vasitəsidir*" [15, s.70]. E. Ferrara və digər tədqiqatçılar isə siyasi ritorikanın yalnız dil vasitəsi ilə məhdudlaşmadığını, həm də sosial media və informasiya manipulyasiyası ilə sıx əlaqəli olduğunu qeyd etməklə məsələyə daha radikal yanaşma sərgiləyirlər [6, s.20-21].

Bu müxtəsər icmaldan göründüyü kimi, siyasi diskurs və onun manipulyativ aspektləri müasir dilçilik tədqiqatlarında xüsusi aktuallığı ilə seçilən mövzulardandır. Çünki siyasi diskursun manipulyativ və arqumentativ cəhətdən elmi araşdırmaya cəlb edilməsi yalnız dilçilik sahəsində deyil, həm də sosial və siyasi elmlər üçün də mühüm əhəmiyyət kəsb edir.

## 3. Tədqiqatın metod və materialları

Bu tədqiqatda siyasi diskursda manipulyasiya və arqumentasiya üsullarını araşdırmaq üçün diskursiv təhlili və dilçiliyin müqayisəli təhlil metodlarından istifadə olunmuşdur. Müqayisəli təhlil vasitəsilə müxtəlif siyasi liderlərin nitqlərində istifadə olunan arqumentativ və manipulyativ texnikalar müqayisə edilmişdir. Material olaraq Azərbaycan və ingilis dillərində siyasi nitq parçaları müqayisəli təhlilə cəlb edilmiş, keçmiş ABŞ Prezidenti B. Obamanın və Azərbaycanın hazırkı Prezidenti İ. Əliyevin ictimai bəyanatları nümunə kimi götürülərək onların nitqlərində faktlara əsaslanan arqumentasiyadan necə istifadə edildiyi araşdırılmışdır. Həmçinin, tədqiqatda A.İ. Şükürova (2022), E.A. Zeynalov (2024), A.R. Moten (2020), C. Blommart (2020) və s. kimi alimlərin siyasi diskurs və arqumentasiya ilə bağlı apardıqları elmi araşdırmalarına istinadlar edilmişdir.

## 4. Tədqiqatın əsas hissəsi

### *4.1. Siyasi diskurs və arqumentasiyanın mahiyyəti*

Siyasi diskurs, yalnız siyasi liderlərin nitqlərindən ibarət deyil, o, ictimai rəyə təsir etmək, siyasi ideologiyaların yayılmasını təmin etmək və müxtəlif ideoloji çərçivələri cəmiyyətə təqdim etmək üçün əsas vasitə rolunu oynayır. Müasir dövrdə siyasi diskurs təkcə siyasətçilərin çıxışları ilə məhdudlaşmır, o, media çıxışları, sosial şəbəkələrdə yayılan məlumatlar, reklam kampaniyaları, seçkiqabağı debatlar, qanunvericilik müzakirələri və ictimai bəyanatlar daxil olmaqla geniş spektri əhatə edir.

Siyasi diskursun təsir dairəsinin genişliyini nəzərə alaraq, bir çox tədqiqatçılar bu fenomeni müxtəlif aspektlərdən araşdırmışdır. P.A. Kakisina, T.R. Indhiarti və Əl Fəcri siyasi diskursu siyasətçilərin öz funksiyalarını yerinə yetirərkən məşğul olduqları fəaliyyət sahəsi kimi müəyyənləşdirir və vurğulayırlar ki, bu diskursun əsas məqsədi ictimaiyyətin diqqətini çəkmək, manipulyasiya etmək və müəyyən ideoloji mesajları çatdırmaqdır [10, s.6].

Bununla yanaşı, siyasi diskursun mahiyyətinə dair daha geniş və fərqli yanaşmalar da mövcuddur. N. Şkvorçenko qeyd edir ki, siyasi diskurs yalnız siyasətçilərin çıxışları ilə məhdudlaşmır, eyni zamanda "cəmiyyətin təşkilinə dair mühakimələri özündə əks etdirən istənilən bəyanat" ola bilər. Bu yanaşma siyasi diskursun təsir dairəsinin daha geniş olduğunu və yalnız siyasətçilərin deyil, həm də jurnalistlərin, aktivistlərin, analitiklərin və digər ictimai fiqurların bu diskursa töhfə verdiyini göstərir [17, s.400].

Siyasi diskurs ictimai rəyə təsir göstərmə vasitəsi kimi, əsasən, arqumentasiya texnikalarına əsaslanır. C. Çarteris-Blək bu baxımdan siyasi diskursu "siyasətçilərin çıxışlarından tutmuş, mediada yayılan məlumatlara, sosial şəbəkələrdə paylaşılan mesajlara və siyasi reklam kampaniyalarına qədər geniş spektri əhatə edən bir fenomen" kimi izah edir [5, s.76].

Siyasi diskursun əsas komponentlərindən biri arqumentasiyadır. Arqumentasiya ictimaiyyətə müəyyən ideya və dəyərləri qəbul etdirmək üçün istifadə olunan dil strategiyasıdır və siyasətçilər, jurnalistlər, siyasi analitiklər tərəfindən geniş istifadə olunur. Siyasi nitq yalnız məlumat ötürmək üçün deyil, həm də ictimai fikri yönləndirmək, mövcud ideoloji çərçivəni gücləndirmək və seçiciləri müəyyən qərarlara hazırlamaq məqsədi daşıyır.

Müasir siyasi diskursda arqumentasiya müxtəlif üsullarla həyata keçirilir. Bu üsullar arasında faktlara əsaslanan arqumentlər, emosional təsir, ritorik suallar, metaforalar, simvolik ifadələr və ideoloji konstruksiyalar xüsusi yer tutur. Siyasi ritorikanın təsir gücü təkcə məntiqi əsaslandırmalardan deyil, həm də dilin ifadəliliyi və zənginliyindən asılıdır.

Bu baxımdan, nitqin strukturu və ifadə vasitələrinin düzgün seçilməsi siyasi arqumentasiyanın effektivliyini artırır. Bu fikri təsdiqləyən N. Məmmədli qeyd edir ki, "ifadəli, zəngin nitq həm kommunikasiya zamanı yüksək səviyyəli nitq mədəniyyətinin nümunəsi, həm də dil daşıyıcısının şəxsi, intellektual potensialının, psixoloji durumunun göstəricisidir. Söz ehtiyatının zənginliyi məqsədəuyğun dil vahidlərini seçməyin, kommunikativ vəzifənin öhdəsindən gəlməyin optimal yoludur" [14, s.35]. Bu yanaşma göstərir ki, arqumentativ nitqin təsir gücü yalnız məzmunla deyil, həm də ifadə vasitələrinin düzgün və məqsədyönlü seçilməsi ilə bağlıdır. Məsələn, faktlara əsaslanan arqumentasiya müəyyən bir fikri və ya ideyanı əsaslandırmaq üçün statistik göstəricilərdən, tarixi faktlardan və rəsmi sənədlərdən istifadə edir. Siyasi liderlər öz nitqlərində bu üsuldan istifadə edərək auditoriyanın etibarını qazanmağa və arqumentlərinin obyektiv qəbul olunmasına nail olmağa çalışırlar. Faktlara əsaslanan arqumentlər müasir siyasi diskursda manipulyativ təsir gücünü artırır, çünki onlar informasiya təqdimatında obyektivlik illüziyası yaradır.

Bununla yanaşı, siyasi ritorikada istifadə olunan emosional və simvolik ifadələr nitqin təsir gücünü artırır. Belə ki, ritorik suallar və metaforalar insan beynində emosional reaksiya doğuraraq auditoriyanın manipulyasiyasını daha da asanlaşdırır. Bu üsullar siyasi nitqin yalnız məzmununa deyil, onun təqdimat tərzinə də diqqət yetirilməsinin vacibliyini göstərir. Məsələn, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarında faktlara əsaslanan arqumentasiya tez-tez müşahidə olunur. Məsələn: "Makroiqtisadi vəziyyət tam sabitdir. İnflyasiya cəmi 2,5 faiz təşkil etmişdir, əhalinin gəlirləri isə 7,4 faiz. Yəni həmişə olduğu kimi

əhalinin gəlirləri inflyasiyanı üstələmişdir. Valyuta ehtiyatlarımız 6,4 milyard dollar artmışdır. Bu, deyə bilərəm ki, son illər ərzində rekord göstəricidir" [9].

Bu arqumentasiya strategiyası iqtisadi inkişafı göstərmək üçün konkret rəqəmlərə və statistik məlumatlara əsaslanır və auditoriyanın rasionallığına xitab edir.

Keçmiş ABŞ Prezidenti B. Obama da faktlara əsaslanan arqumentasiyadan istifadə edirdi: "More than 14 million new jobs, the strongest two years of job growth since the 90s, an unemployment rate cut in half. Our auto industry just had its best year ever. (Applause.) That's just part of a manufacturing surge that's created nearly 900,000 new jobs in the past six years. And we've done all this while cutting our deficits by almost three-quarters" [8].

Bu bəyanatında B. Obama iqtisadiyyatın güclənməsini və işsizlik səviyyəsinin azalmasını konkret statistik məlumatlarla əsaslandıraraq arqumentasiyasını gücləndirmişdir. O, auditoriyanı inandırmaq üçün rəsmi iqtisadi göstəricilərə istinad edir və bu göstəriciləri pozitiv istiqamətdə təqdim edərək ictimai rəyə təsir göstərir.

Arqumentasiya deduktiv və ya induktiv nəticəyə aparan ardıcıl məntiqi düşüncə prosesi kimi tərif edilə bilər, yəni auditoriyanı tezisə bağlı saxlamaq və manipulyasiya etmək üçün verbal vasitələrə həkk olunmuş mənaların və üstünlüklərin məntiqi əsasıdır [15, s.398].

B. Obama nümunəsi bu elmi yanaşmanı praktikada əks etdirir. O, verbal manipulyasiya və arqumentativ strategiyalarla iqtisadi uğurlarını auditoriyaya pozitiv məzmunla çatdırır. Məsələn, "More than 14 million new jobs" (14 milyondan çox yeni iş yeri) ifadəsi böyük iqtisadi inkişaf təsəvvürü yaradır, lakin burada təqdim edilən faktlar seçilmiş və məqsədli şəkildə kontekstləşdirilmişdir. Eyni zamanda, "strongest two years of job growth since the 90s" (90-cı illərdən iş yerlərinin ən güclü artımının müşahidə edildiyi son iki il) ifadəsi yalnız müəyyən dövrü müqayisəyə daxil edərək məlumatı auditoriyaya pozitiv kontekstdə təqdim edir.

Beləliklə, arqumentasiya vasitəsilə auditoriyanın düşüncə və baxış tərzi müəyyən bir istiqamətə yönləndirilir və siyasi diskursun əsas funksiyalarından biri kimi çıxış edir. Siyasi nitqin təsir gücü təkcə informasiyanın ötürülməsi ilə məhdudlaşmır, o, eyni zamanda ictimai fikrin formalaşması, siyasi liderlərin mövqelərinin legitimləşdirilməsi və auditoriyanın emosional reaksiyalarının yönləndirilməsi üçün də istifadə olunur.

### *4.2. Siyasi diskursda arqumentasiyanın manipulyativ təbiətinin nəzəri əsası*

Biz manipulyativ planda arqumentasiyanın daha geniş və inklüziv konsepsiyanı dəstəkləyirik. Bu yanaşma siyasi diskursun təkcə məntiqi əsaslandırma ilə məhdudlaşmadığını, həm də müxtəlif sosial və psixoloji amillərin təsiri altında formalaşdığını nəzərə alır. Məsələn, bir siyasətçi təkcə statistik faktlarla kifayətlənməyərək, öz arqumentlərini emosional çağırışlarla gücləndirə bilər. Bu, logos (məntiqi əsaslandırma), patos (emosional təsir) və ethos (natiqin etibarlılığı) elementlərinin balanslaşdırılmış istifadəsi ilə mümkün olur.

Bu konsepsiya siyasi qiymətləndirməni, qərarverməni və fəaliyyətləri istiqamətləndirən praktiki səbəbləri nəzərə alır, dolayı arqumentasiya metodlarını əhatə edir və logos, patos və

ethos elementlərinə bərabər dərəcədə əhəmiyyət verir. Məsələn, ABŞ-ın keçmiş Prezidenti B. Obamanın iqtisadi inkişafla bağlı bəyanatında faktlara əsaslanan arqumentasiyadan (logos) istifadə edildiyi halda, bu arqumentasiyanın təsir gücünü artırmaq üçün emosional vurğular (patos) və liderin şəxsiyyəti ilə bağlı etibarlılıq elementi (ethos) də tətbiq edilmişdir. Sonuncu ilə bağlı olaraq vurğulamaq lazımdır ki, emosional arqumentlər hədəf auditoriyanın duyğularına və daxili motivasiyasına müraciət edir. Onlar hisslərə və həssaslığa əsaslanır. Emosional üslubda tərtib edilmiş nitq auditoriyada canlı reaksiya yaradır. Bu tip arqumentlər dilin müxtəlif səviyyələrində özünü göstərir.

Prezident İlham Əliyevin yuxarıda qeyd edilən bəyanatında da arqumentasiyanın bu üç elementi aydın şəkildə müşahidə olunur: 1) Logos (məntiqi əsaslandırma): Nitqdə təqdim olunan statistik göstəricilər iqtisadi sabitlik və artımı sübut etmək üçün istifadə olunur: "İnflyasiya cəmi 2,5 faiz təşkil etmişdir, əhalinin gəlirləri isə 7,4 faiz"; "Valyuta ehtiyatlarımız 6,4 milyard dollar artmışdır". Bu rəqəmlər reallığı obyektiv şəkildə təqdim etməklə arqumentin məntiqi əsasını gücləndirir və dinləyicinin rasionallığına təsir edir; 2) Patos (emosional təsir): Nitqdə pozitiv dəyərlər və inam hissi aşılayan ifadələr yer alır: "Makroiqtisadi vəziyyət tam sabitdir"; "Bu, deyə bilərəm ki, son illər ərzində rekord göstəricidir". Bu tip ifadələr yalnız rəqəmləri sadalamaqla kifayətlənmir, eyni zamanda emosional çalar əlavə edərək auditoriyanın gələcəyə inamını artırır və hökumət siyasətinə bağlılığı gücləndirir. 3) Ethos (natiqin etibarlılığı): Prezident öz nitqində birbaşa iqtisadi göstəricilərə istinad edərək lider kimi mövqeyini təsdiqləyir: "Yəni həmişə olduğu kimi, əhalinin gəlirləri inflyasiyanı üstələmişdir". Bu cümlədə "həmişə olduğu kimi" ifadəsi hökumətin uğurlarını ənənəvi və davamlı bir proses kimi təqdim edir və bu, dinləyicidə güvən hissi yaradır. Bu nümunələr göstərir ki, siyasi arqumentasiya yalnız rasionallıq üzərində qurulmur, siyasi liderlər auditoriyanı inandırmaq və ictimai dəstəyi qorumaq üçün həm emosional, həm də etibarlılıq aspektlərindən istifadə edirlər. İlham Əliyevin bəyanatında statistik göstəricilər məntiqi əsaslandırma üçün istifadə olunmaqla yanaşı, emosional vurğular və liderin etibarlılığını artıran ifadələrlə də tamamlanır. Beləliklə, arqumentasiya manipulyativ planda daha geniş və inklüziv konsepsiyaya əsaslanır və siyasi diskursun əsas funksiyalarından biri kimi çıxış edir.

Siyasi arqumentasiya yalnız razılığın əldə olunmasına əsaslanmır, çünki arqumentasiyanın məqsədi manipulyasiya olmaqla yanaşı, həm də siyasi həyatın mərkəzində duran fikir müxtəlifliyinin idarə olunmasını əhatə edir. Bu baxımdan, arqumentasiya təkcə opponentləri susdurmaq və ya auditoriyanı müəyyən bir mövqeyə yönəltmək üçün istifadə olunmur, həm də ictimai müzakirələrin və debatların formalaşmasına xidmət edir. Beləliklə, siyasi diskursda arqumentasiya təkcə inandırma vasitəsi deyil, həm də ideoloji çərçivələrin və cəmiyyətin qəbul etdiyi normativlərin formalaşdırılması mexanizmidir.

Siyasi diskursun ən mühüm komponentlərindən biri onun manipulyasiya potensialıdır. Siyasi ritorika və arqumentasiya üsulları vasitəsilə ictimaiyyətin müəyyən fikirlərə yönləndirilməsi və bu fikirlərin qəbul etdirilməsi mümkündür. A.R. Moten qeyd edir ki, arqumentasiya və manipulyasiya siyasi diskursun ayrılmaz hissələridir, ictimaiyyətin müəyyən ideoloji baxışlara yönləndirilməsində əsas vasitələrdən biridir [15, s.390].

Siyasi diskurs vasitəsilə manipulyasiya yalnız klassik nitq formaları ilə deyil, həm də emosional və psixoloji təsir texnikaları ilə də həyata keçirilir. C. Blommaert siyasi diskursu "baxış tərzlərini istiqamətləndirən və müəyyən ideoloji çərçivələr yaradan diskursiv fəaliyyət" kimi xarakterizə edir [4, s.395]. Bu baxımdan, siyasi diskursun əsas xüsusiyyəti onun yalnız informativ deyil, həm də normativ xarakter daşımasıdır. Yəni o, yalnız məlumat ötürmək funksiyası daşımır, həm də müəyyən ideoloji mövqelərin qəbul olunmasını təşviq edir və ictimai şüuru formalaşdırır.

"... arqumentasiya subyektin öz mövqeyinin doğruluğunu əsaslandıraraq, mətni qəbul edənin inandırılmasına yönəldilmiş üçlükdə - verbal, qeyri-verbal, ekstralinqvistik amillərlə birgə kommunikativ fəaliyyətdir" [1, s.18]. Bu arqumentasiya modellərini siyasi diskurs ilə əlaqələndirmək mümkündür, çünki siyasi nitqlərdə və ritorikada oxşar üsullar manipulyasiya və ictimai rəyə təsir üçün geniş istifadə olunur.

Reklam mətnlərində olduğu kimi, siyasi diskursda da arqumentasiya prosesində maddi və sosial-iqtisadi reallıqlara istinad edilir. Reklamda məhsulun keyfiyyətlərini vurğulamaq üçün onun konkret xüsusiyyətləri ön plana çəkildiyi kimi, siyasi nitqlərdə də real statistik göstəricilər və sosial faktlar təqdim edilərək arqumentlər möhkəmləndirilir. Məsələn, bir siyasətçi iqtisadi artımı əsaslandırmaq üçün rəsmi məlumatlara istinad edə bilər: "Bizim yeni islahatlarımız nəticəsində son iki ildə işsizliyin səviyyəsi 10%-dən 5%-ə düşüb". Bu cür arqumentlər faktiki dəlillərlə dəstəkləndiyi üçün seçicilərin güvənini qazanmağa və siyasi mövqeyin inandırıcılığını artırmağa xidmət edir.

Siyasi diskursun digər vacib arqumentasiya üsullarından biri də metonimik əlaqələrin qurulmasıdır. Reklam mətnlərində bir məhsulun keyfiyyəti və ya təsviri ilə müəyyən konsept arasında assosiativ bağlılıq yaradıldığı kimi, siyasi diskursda da liderlər, partiyalar və ideologiyalar arasında assosiasiyalar formalaşdırılır. Məsələn, bir siyasi lider öz ölkəsinin gücünü və stabilliyini şəxsiyyəti ilə eyniləşdirə bilər: "Biz birlikdə daha güclüyük!", "Xalqın rifahı bizim prioritetimizdir" və s. Bu tip ifadələrdə metonimiya işlədilir, çünki abstrakt anlayışlar (xalq, rifah, birlik) konkret siyasətlə əlaqələndirilərək emosional təsir gücü artırılır.

Siyasi diskursda sosial-iqtisadi faktlara istinad etməklə arqumentləri gücləndirmək və metonimik əlaqələr quraraq siyasəti pozitiv emosiyalarla əlaqələndirmək geniş yayılmış manipulyasiya texnikalarındandır. Bu üsullar həm də reklam strategiyaları ilə oxşarlıq təşkil edir. D.R. Qənbərova bu kontekstdə vurğulayır ki, "Siyasi diskurs ilk növbədə adresatla kontakt yaratmağa yönəlmişdir. Kontakt yaratma funksiyası siyasi diskursun əsas vəzifəsi hesab olunur. Kontakt yaranandan sonra diskursun ikinci mərhələsi kontaktın sabitləşməsi və möhkəmlənməsi məsələsidir" [12, s.320]. Bu fikir təsdiqləyir ki, siyasi diskurs təkcə məntiqi arqumentasiyaya deyil, həm də psixoloji və emosional təsir mexanizmlərinə əsaslanır və cəmiyyətlə davamlı ünsiyyət yaratmaq üçün müxtəlif üsullardan istifadə olunur.

**Nəticə.** Siyasi diskursun əsas xüsusiyyətlərindən biri onun yalnız informativ deyil, həm də manipulyativ və arqumentativ funksiyalar daşımasıdır. Müasir dövrdə siyasi diskurs yalnız

siyasətçilərin nitqləri ilə məhdudlaşmır, həm də ictimai rəyə təsir göstərmək və siyasi ideologiyaları yaymaq üçün mühüm vasitəyə çevrilmişdir. Siyasi liderlər, jurnalistlər və ictimai fiqurlar öz arqumentasiya strategiyalarında müxtəlif ritorik və dil manipulyasiya texnikalarından istifadə edərək auditoriyanın baxışlarını və mövqelərini müəyyən istiqamətə yönləndirirlər. Beləliklə, siyasi diskurs yalnız informasiya yaymaq funksiyasına malik deyil, həm də siyasi qərarların qəbul edilməsinə və ictimai şüurun formalaşmasına təsir göstərən güclü mexanizmdir.

Siyasi arqumentasiya, əsasən, logos (məntiqi əsaslandırma), patos (emosional təsir) və ethos (natiqin etibarlılığı) elementlərinin balanslı istifadəsinə əsaslanır. Faktlara əsaslanan arqumentasiya, emosional təsir və ideoloji çərçivələr siyasi nitqdə manipulyasiya və inandırma üçün əsas vasitələr kimi çıxış edir. Araşdırmalar göstərir ki, siyasi liderlər və dövlət qurumları ictimai rəyə təsir etmək üçün statistik göstəricilərdən, metaforalardan, simvolik ifadələrdən və digər ritorik texnikalardan istifadə edirlər. Barak Obama və İlham Əliyevin nitqlərində istifadə edilən faktiki arqumentlər bunun bariz nümunəsidir: onlar statistik məlumatlardan istifadə edərək iqtisadi inkişafı sübut edir və yürüdülən siyasətə münasibətdə auditoriyanın inamını artırırlar.

Siyasi diskursun manipulyativ funksiyalarının araşdırılması, ictimai rəyin formalaşması və dilin gücünün dərk edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Siyasi ritorikanın təsir gücünü anlamaq və manipulyativ texnikaları tanımaq, demokratik cəmiyyətlərdə vətəndaşların siyasi proseslərə daha aktiv və məlumatlı şəkildə qatılmasına kömək edir. Nəticə etibarilə, bu tədqiqat göstərir ki, siyasi diskurs və arqumentasiya təkcə dilçilik sahəsində deyil, həm də siyasi və sosial elmlər kontekstində əhəmiyyətli mövzudur və onun dərin öyrənilməsi cəmiyyətin siyasi mədəniyyətinin formalaşmasına töhfə verə bilər.

## Ədəbiyyat

1. Ağazadə A.M. (2012), Müasir dövrdəki ingilisdilli hüquqi mətnlərin diskursiv xüsusiyyətləri (məhkəmə sənədlərinin materialları əsasında). Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avroreferatı, Bakı, 24.
2. Akopova A.S. (2013), Linguistic manipulation: Definition and types. International Journal of Cognitive Research in Science Engineering and Education, Vol.1, No.2, 78-82.
3. Allahverdiyeva A. (2021), Siyasi diskursda informasiyanın interpretasiyasında təlqin trateqiyası. Dil və Ədəbiyyat Jurnalı, No.3, 11-21.
4. Blommaert J. (2020), Political discourse in post-digital societies. Trabalhos em Linguística Aplicada, Vol.59, No.1, 390-403. https://doi.org/10.1590/01031813684701620200408
5. Charteris-Black J. (2018), Analysing Political Speeches: Rhetoric, Discourse and Metaphor. London, Bloomsbury Publishing, 298.
6. Ferrara E., Chang H., Chen E., Muric G., Patel J. (2020), Characterizing social media manipulation in the 2020 U.S. presidential election. First Monday, Vol.25, No.11, 1-32. https://doi.org/10.5210/fm.v25i11.11431

7. Həbibova K.Ə. (2024), Siyasi diskursda nitqi manipulyasiyanın rolu. İpək Yolu Jurnalı, No.3, 134-145.
8. https://obamawhitehouse.archives.gov/the-press-office/2016/01/12/remarks-president-barack-obama-–-prepared-delivery-state-union-address
9. https://president.az/az/articles/view/35693
10. Kakisina P.A., Indhiarti T.R., Al Fajri M.S. (2022), Discursive strategies of manipulation in Covid-19 political discourse: The case of Donald Trump and Jair Bolsonaro. SAGE Open, Vol.12, No.1, 1-9. https://doi.org/10.1177/21582440221079884
11. Kuzmenko O., Kyryliuk O., Bublyk T., Boyko Y., Ruban V. (2023), Linguistic dimension of political advertising: Analysis of linguistic means of manipulative influence. World Journal of English Language, Vol.13, No.1, 205-211.
12. Qənbərova D.R. (2021), Siyasi diskursun müasir cəmiyyətdə parametrləri. Magistrantların XXI Respublika Elmi Konfransı, 17-18 may, Bakı Slavyan Universiteti, 319-320.
13. Macagno F. (2022), Argumentation profiles and the manipulation of common ground. The arguments of populist leaders on Twitter. Journal of Pragmatics, Vol.191, 67-82. https://doi.org/10.1016/j.pragma.2022.01.022
14. Məmmədli N. (2020), Azərbaycan Dili və Nitq Mədəniyyəti. Bakı, Elm və təhsil, 548.
15. Moten A.R. (2020), The politics of manipulation: Malaysia 2018-2020. Intellectual Discourse Journal, Vol.28, No.2, 387-408.
16. Orwell G. (2013), Politics and the English Language. London, Penguin Classic, 48.
17. Shkvorchenko N. (2020), Linguistic and gender peculiarities of English political discourse. Lingvistică, Vol.(1-2), 398-416.
18. Şükürova A.İ. (2022), Müstəqillik dövrü siyasi diskursunda “Azərbaycan” konseptinin dinamikası. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avroreferatı, Bakı, 32.
19. Zeynalov E.A. (2024), İngilis dilinin Britaniya və Amerika variantlarında beynəlxalq siyasi diskursun leksikası. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avroreferatı, Bakı, 32.
20. Фионова А.А. (2019), Language as a manipulation tool in a dystopian world of 1984 and its influence on the modern world. Сборник Научных Трудов по Материалам Четвертой Международной Научно-Практической Конференции, Воронеж, 19-20 февраля, 418-428.